# XX əsr Güney Azərbaycan poeziyasında Təbriz mövzusu

**Təbriz İmamyar oğlu Əhədov**
*AMEA-nın Nizami Gəncəvi adına*
*Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** tehedov@gmai.com

**Rəyçilər:** filol.ü.e.d., akad. R.B. Hüseynov,
filol.ü.f.d., dos. F.N. Abdurəhmanova

**Açar sözlər:** ədəbiyyat, poeziya, vətən həsrəti, Təbriz mövzusu, Azərbaycan poeziyası, lirika, Cənubi Azərbaycan

**Ключевые слова:** литература, поэзия, тоска по родине, тебризская тема, азербайджанская поэзия, лирика, Южный Азербайджан

**Key words:** literature, poetry, longing for homeland, Tabriz theme, Azerbaijani poetry, lyrics, South Azerbaijan

İstər klassik dövrlərdə, istərsə də iyirminci əsrin poeziyasında yetərincə işıqlandırılan Təbriz mövzusu hal-hazırda da üzdə olan mövzu kimi geniş şəkildə yazılır və tədqiqatçılarımız tərəfindən araşdırılır. Bu mənada AMEA-nın Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən “Cənubi Azərbaycan Ədəbiyyatı” şöbəsi məhsuldar şəkildə Cənub Ədəbiyyatı haqqında elmi-tədqiqat işləri yerinə yetirir və dəyərli əsərlər yardırlar. Sabir Nəbioğlu, Rəhim Əliyev, Esmira Fuad, Pərvan Məmmədli, Vüqar Əhməd, Kifayət Məmmədova və onlarca digər alimlərin fəaliyyətində Cənubi Azərbaycan Ədəbiyyatı hər zaman dəyərləndirilib. Cənub poeziyasındakı müasir panoramı izləyən Pərvanə Məmmədli yazır: “Son iyirmi ildə güney Azərbaycan şeirində inqilabın sosial və mənəvi təsiri ilə baş vermiş məzmun yenilikləri formaya, lirikanın ifadə imkanlarına da təsirsiz qalmamışdır. Poeziyada klassik şeir ənənələri ilə yanaşı müasir dünya poetik fikri zəminində də ədəbi nümunələr yaranmışdır. Bu gün bir çox cənublu şairlərin əsərləri xalqın ən vacib mənəvi qayğılarını əks etdirir” (6, s. 136).

XX əsr poeziyası Azərbaycan ədəbiyyat tarixində önəmli yer tutur. XX əsrin yadda qalan şairlərindən biri Nadir Əzhəri poeziyasında da Təbrizlə bağlı şeirlər diqqət çəkir. Təbrizdə doğulmasa da Təbrizdə yaşayır. Təbrizə olan sevgisi, Təbriz təəssüratları poeziyasında öz əksin tapmışdır. Onun özünün yazdığı kimi doğulduğu Tehranda Ərdəbil kökənli bir ailədə dünyaya göz açması, sonradan Təbrizdə yaşaması həm şeirlərində, həm də həyatında böyük izlər qoyub. Müəllif “Kafi-net” adlı şeirində yazır:

*“Googİe map” da nə gəzirəm?*
*Təbrizdə Ərdəbili,*
*Ərdəbildə Təbrizliyəm! (1, s. 145).*

“Təbrizin yelləri” şeirində isə müəllif Təbriz rüzgarında yaşanan hadisələri xatırladır. “Gecə əsəndə yelləri Təbrizin, dostların get-gəlindən əmin oluram, və yelin gətirdiyi səsdə itməyəcəyimə də...” deyən şair düşüncə və dərkində yaşananlara sətiraltı işıq tutur.

*Gözlərim qaranlığa öyrənməmiş*
*Qələmi nərdivan kimi saxlayıram,*
*Nıqqıldayaraq çiyninə sıxıram sözcüklərin*
*Heyrət adlı tozlu bacadan göz qoyuram:*
*... gedib-gəlirdə ayaqqabıları , yoldaşların..!*

Təbrizdə yaşananlar şairin həyatında unuda bilmədiyi həqiqətlər, real hadisələr şeirin əsas ana xəttini təşkil edir. Dost-yoldaşların bu rüzgarlarda "gediş-gəlişləri" şeirdə təəssüf qarışıq təsirli hislər yaşadır. Təbriz yeli ismini məcazi mənada istifadə edən şair hadisələrə münasibətini real boyalarla əks etdirir. Sondakı misralarda şair demək istədiyi həqiqəti bütövlüyü ilə açır.

*Gecə əsəndə yelləri Təbrizin*
*Qurşunun səsində buluram biri sürü.*
*Gecə əsəndə yelləri Təbrizin*
*Dostların get-gəlindən,*
*Ah!*
*Əmin oluram...!*
*("Təbrizin yelləri" yenə orada)*

Kiyan Xiyavın yaradıcılığında da Təbriz mövzusu diqqət çəkir. Onun "Təbriz və biz-ikili yalnızlıq" başlıqlı şeirində Arazla Təbriz arasındakı məsafə və həsrət qələmə alınıb. İkili yalnızlığı müəllif tərəfindən poeziya sığışdırılan həsrət çox böyük təsir gücünə malikdir. Şeirdə Təbrizə olan sevgi Araza olan sevgiylə birləşir. Şeirdə yalnızlıq, həsrət və ayrılıq qəhrəmanın dilindən verilir. Qəhrəmanın əsas istəyi Arazla Təbrizin birliyi və bərabərliyi ideyasıdır.

*Təbrizin up-uzununda*
*Səpsərin bir yel əsir addımlarımızdan...*
*Şeh çilənir*
*Axşamın morumtul ala qaranlığından*
*Düşlədiyimiz otağın pəncərəsinə...*
*Və yaxud,*
*Axşamın morumtul ala qaranlığından*
*Bir ulduz düşür uzaqda Araza...*
*Gözlərinə gözlərimdən bir damla yaş pay məndən...*

Bir çox Təbriz şeirlərində Şimalı Azərbaycan adları da keçir. Bu mövzuda yazılan şeirlər də böyük həsrəti, ayrılığı duymamaq çətindir. Məhəmməd RzaLəvayinin yaradıcılığında Bakıda yaşayan müəllifin Təbrizlə söhbətində həm Təbrizi, həm də Bakıdakı yaşantıları görmək olur. İşsizlik, qadın problemləri şairi narahat edir və şeirin bir misrasında ana Təbrizdən ayrılıb Bakıya gəlməsi belə ifadə edilir.

*Və ana Təbriz yeyir özünü əlvida həsrətində*
*Həəəə... gəldin, Ləvayi, gəldin!*

Deyən şair bu gəlişdə Bakı ilə Təbrizi bir arada yaşamaq istəyir. Bakıdakı yaşantıları müşahidə edir, amma buradakı yaşantı da onu razı salmır.

*Qızcığazları senzurlanmış itlər*
*Əslində heç bir qız Ay deyil burada*
*İşsiz qadının göz yaşıdır Ay*
*Tökülür üstümə hər gecə.*

Müəllif çox böyük cəsarətlə ictimai-siyasi məsələləri də əks etdirməyə çalışır və Bakının mənzərəsini yarada bilir. Şeirdə Bakıda Təbriz həsrəti ilə yaşayan qəhrəman bu həsrəti şeirin sonunda daha təsirli ifadə edir. İki misrada Bakının açılan sabahı və Təbrizdə saçlarını yığan ana xatırlanır.

*Bax, Bakıda gündüz açılır,*
*Yəqin Təbrizdə saçlarını yığır anam!...*

*(Məhəmməd Rza Ləvayi, "Həəə...Ləvayi... həəə", yenə orada, s. 353)*

Təbriz və Şimalı Azərbaycan mövzusunda yazıb-yaradan şairlərdən biri də, Yaquboğlu Şovkəti Təbriz yaxınlığında 1972-ci ildə dünyaya gəlmişdir. 1990-cı illərdə şairin "Şəmse-Təbriz", "Omide-Təbriz" və s. gündəlik qəzet və jurnallarda məqalə və şeirləri çap edilib. Müəllifin "Salam olsun sənə, ey Azərbaycan" şeirində Təbrizə olan sevgisi əks edilməklə bərabər Şimalı Azərbaycan torpaqlarına da böyük məhəbbət və diqqəti təcəssüm etdirilir.

*Salam olsun sənə gülüm Təbrizim,*
*Arxam, elim, sınmaz belim Təbrizim,*
*Salam olsun sənə can ey can, ey can,*
*Salam olsun sənə, ey Azərbaycan! (2, s. 402-403)*

Cənub şairlərinin poeziyasında Təbrizin təsvir yalnız ona olan sevgi, həsrət hisslərini ifadə etmir. Bəzən Təbrizin ictimai-siyası vəziyyəti də şairlərin yaradıcılığında əksin tapır. Hal-hazırda Təbrizdə yaşayıb-yaradan şair Cavad Bərzegərzadə şeirində Təbrizin iç göynədən halı da təsvir edilir. Şair "Sənə sevən doğacağam" şeirində yazır:

*Eybi yoxdur, yaşayışın,*
*Ölümü var, itimi var,*
*Təbrizimin, addım-addım,*
*Ağlar qalan yetimi var. (3, s. 413)*

Hazırda Bakı şəhərində yaşayan, Yazarlar Birliyinin "Güney Azərbaycan Ədəbiyyatı şöbəsinin müdiri vəzifəsində çalışan Sayman Aruzun yaradıcılığında da Təbriz və Turan sevdası yadda qalır. Sayman Aruz Təbriz Azad Universitetinin məzunu olmuşdur. Təbriz şairin gənclik illərinin şirin xatirələri kimi yaradıcılığında iz buraxır. Onun "Mən ölsəm əgər" şeirində içində böyüyən Təbrizlə birləşən böyük Vətən, bütöv bir Turan var.

*Mən ki, dilim-dilim yaşadım, amma...*
*Qəbirdə bir bütöv insan kimiyəm.*
*Çox tayım Təbrizdə qalsa da belə,*
*Azərbaycan kimi, Turan kimiyəm... (4, s. 662)*

Şeirdə qürur, fəxarət hissi ön planda təcəssüm etirilir.

Maral Təbrizlinin "Mənim adım Azərbaycan" başlıqlı şeirində də birlik və bərabərlik, Türk sedası poetik ifadəsini tapır.

*Mənim adım Azərbaycan,*
*Gözlərimdə bozəqurdun səsi,*
*Dodaqlarımda türkün bayrağı,*
*Sözlərimdə şanlı Vətənim dalğalanır...*
*Mənim adım ulu türk,*
*Ölkəmin torpağı könül mahnımdır...*

Qəhrəman Təbrizdə doğulmağı ilə fəxr edir və eyni zamanda, vətəninə, bayrağına, qeyrətli yurduna olan hörmət və rəğbətini də şeirində əks etdirir. Təbrizdə türk dili və ədəbiyyatı ustadı kimi tanınan, şöhrət tapan Əli Daşqının ailəsində çöz açan Maral xanım yaradıcılığında bu birlik və bərabərliyi dəyərli şəkildə qələmə alır.

Təbrizdə 1988-ci ildə dünyaya göz açan Əna Zaredə poeziyasında Təbriz mövzusuna xüsusi yer verən müəlliflərdəndir. Şeirdə Təbrizin ictimai-siyasi həyatını qələmə alan şairə fəlsəfi düşüncəsindən hadisələrə baxır və dəyərləndirir. Qəhrəmanın yaşadığı həbsxana və buradan dünyaya baxmaq təsirli və eyni zamanda düşündürücüdür. Şahgölüdə yağan qar, qəhrəmanın xatirə vərəqlərini bir-bir vərəqlədir. Bu səhifələrdə qəhrəmanın Təbrizlə olan anları var. Bu anlar kədərdən və qüssədən xəbər verir.

*Şahgölüdə qar yağır,*
*Nöqtə-nöqtə oynayır beynimdə anılar,*
*Dizayn edirəm səni evimdə,*
*Yoxluğunu kürüyürəm damdan.*
*Pəncərənə baxır Təbriz*
*Və mənim dustaq divarıma*
*Corabsız üşüyür asılmış arzular,*
*Fırlanıram səssisz,*
*Dəmpayilərim... ağ!*
*Düşünsənə!*

Qəhrəmanın "üşüyən asılmış arzular"ı ifadə edən misraları, onun və cəmiyyətin çətinliklərini, ictimai-siyasi yaşantılarını təcəssüm etdirir. Yaşananları xatırlamaqla sükuta qərq olan bir qəhrəmanın sıxıntı və düşüncələri əslində cəmiyyətin düşdüyü durumun ifadəsidir. Şahgölündə yağan qar təbiəti aydınlatsa da bir evin içini, yəni qəhrəmanın iç dünyasını aydınlaşdıra bilmir. "Evdə, həyətdə geyilən başmaq" ifadəsində qəhrəmanın dustaq bildiyi dörd divarın içərisindən xəbər vermiş olur. Təsəvvürümüzdə çöl başmaqlarının çirkabı canlanır.

Bəzən isə qəhrəmanın Həbsxananı azadlığa gedən bir kəsə yol kimi qəbul etməsi başqa ideyalar verir.

*Məni Təbrizdən uzağa,*
*Tehrandan evinə süründürməyin.*
*Ac gecələrimdə alma bitəcək,*
*Qabar əllərimdə durnalar uçacaq,*
*Gözlərimdə isə Araz-Araz balıq doğulacaq.*

*Dustaq deyil bu,*
*Azadlığa gedən bir kəsə yoldur!*
*— Həbsxana.*

Bu misralarda Təbrizdən kənarda yaşamağın acılığı və kədəri daha dolğun ifadə edirlir ki, Araz həsrəti də Təbriz həsrətinə qovuşur. Şeirin sonlarına doğru qəhrəmanın həsrəti daha da çoxalır. Vətənin dərdlərini içində yaşadan qəhrəman çiyinlərindəki vətən nisgilin nağıllarda, əfsanələrdə olduğu kimi Xançobanların-igidlərin onun çiylərindən almasını gözləyir.

*Təbrizi çiynimə atıram,*
*Dırmaşıram Vətən duruşlu ürəyindən...*
*Gözlərini cütləyibsən Xançobanın qapısına,*
*alsana!*
*Çiynimdəki nümarımda*
*Saray dolusu nisgil gətirmişəm!.. (5, s. 937-939)*

Təbriz mövzusu poema janrında da əks edilmişdir. İri həcmli əsərlərdə Təbrizin ictimai-siyasi və sosial yaşantıları bütün dövrlərdə təcəssüm olunmuşdu. Bu baxımdan Həmid Nitqinin "Təbriz" poemasını və Əli Əkbər Turabi (Calaloğlu)nun "Eynalı el dağı, Təbriz günəş yurdu" poemaları önəmli yer tutur.

Həmid Nitqi "Təbriz" poemasının əsas mövzusu Vətən mövzusudur. Əsrin qiymətli misralarla başlaması özü də böyük əhəmiyyət kəsb edir. "Çevirdim-səhifələri" deyən şair Təbriz tarixini vərəqləyir, onun yaşantılarını bir-bir oxucusuna təqdim edir, unudulmağa qoymur. Qarşımızda Təbrizin on altıncı əsirdəki halı dayanır. Əsrdə tarixdə Təbrizin işğallara məruz qalması və yadellilərin tapdağında olması diqqətə çatdırılır. Sonrakı dövrdə Təbrizin azad olması əksin tapır:

*Dillərdə oldu dastan*
*Paytaxtımız,*
*Əziz Təbriz.*
*Və ölkəmiz,*
*Azərbaycan. (6, s. 136)*

Son olaraq Cənubi Azərbaycan şairlərini yaradıcılığında Təbriz mövzusunun yetərincə təcəssüm edildiyi müşahidə olunur. İyirminci əsrin ilk illərindən etibarən Təbriz mövzusunun daha çox gündəmə gəldiyini görmək olur. Bu şeirlərdə Təbrizin mədəniyyət beşiyi olması, onun ictimai-siyasi-sosial yaşantıları, gözəllikləri, orada aparılan mübarizələr əks edilmişdir. Xüsusi ilə Təbrizə olan sevgi və Təbriz həsrətini ifadə edən şeirlər isə daha çox üstünlük təşkil edir. Bu şairlərin hər birinin Təbrizə bağlılığı, Təbriz sevdalı olduqları poeziyalarında yetərincə işıqlandırılmışdır ki, və buda elə Təbriz vurğunluğundan irəli gəlir.

**Məqalənin aktuallığı**. Cənub şairlərinin yaradıcılığında Təbriz mövzusu həmişə diqqət çəkir. Güney Azərbaycan poeziyası konkret olaraq Təbriz gözəlliklərini, Təbriz sevgisini, Təbrizdəki ictimai-siyasi məsələləri, Təbriz həsrətini təcəssüm etdirmək baxımından araşdırmaçıların diqqətini hər zaman çəkmişdir. Məqalənin də aktuallığı onun belə bir vacib mövzuya həsr olunması ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə XX əsr Güney Azər-

baycan poeziyasında Təbriz mövzusu ilə bağlı konkret nümunələr göstərilərək təhlil edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə doktorantların, bakalavr və magistrantların elmi axtarışlarının qaynaqlarına çevrilə bilər.

## Ədəbiyyat

1. Nadir Əzhəri. Kafi net. Günümüzün Güney ədəbiyyatı antologiyası. Bakı, Elm və təhsil, 2018, s.14.

2. Yaquboğlu Şovketi. Salam olsun sənə, ey Azərbaycan. Günümüzün Güney ədəbiyyatı antalogiyası. Bakı, Elm və təhsil, 2018, s. 402-403.

3. Cavad Bərzegərzadə. Sənə sevən doğacam. Günümüzün Güney ədəbiyyatı antologiyası. Bakı, Elm və təhsil, 2018, s. 413.

4. Sayman Aruz. Mən ölsəm əgər. Günümüzün Güney ədəbiyyatı antologiyası. Bakı, Elm və təhsil, 2018, s. 662.

5. Əna Zare. Küt bıçaqdır ovçu gözlərin. Günümüzün Güney ədəbiyyatı antalogiyası. Bakı, Elm və təhsil, 2018, s. 937-939.

6.Həmid Nitqi. Təbriz. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb“ nəşriyyatı, 2005, s. 136.

**Т.И. Ахадов**

## Тема Тебриза в поэзии Южного Азербайджана в XX веке

## Резюме

Путь поэзии, наряду с лирическим чувством любви, также прошел через борьбу. Столкнувшись время от времени с невзгодами истории, азербайджанская поэзия имеет патриотическое и социальное содержание. Во все эпохи было  в чувстве свободы от духа азербайджанского народа. Во второй половине XX века тоска по Южному Азербайджану привлекает особое внимание в произведениях всех поэтов. Поэзия XX века, в которой широко распространен политический лиризм, характеризуется общетюркской культурой, запечатленной в генетической памяти азербайджанского народа, борющеегося за национальную независимость и свободу.

В Азербайджанской литературе двадцатого века, особенно в поэзии, были стихи, воспевающие социальную и политическую несправедливость, с которой сталкивается народ, и художественные истины, проистекающие из этой несправедливости, тоску по родине, демократические национальные идеи о разделении.

**T.I. Ahadov**

## The theme of Tabriz in the poems of South Azerbaijani poets


## Summary

The path of poetry was not only lyrical feelings of love, but also struggles. Faced with the hardships of history from time to time, Azerbaijani poetry has a patriotic and social content. In all epochs, the feeling of freedom from the spirit of the Azerbaijani people was not lacking. In the second half of the twentieth century, the longing for South Azerbaijan attracts special attention in the works of all poets. Twentieth-century poetry, in which political lyricism is widespread, is characterized by an all-Turkic culture engraved in the genetic memory of the Azerbaijani people fighting for national independence and freedom.

In the twentieth century Azerbaijani literature, especially in poetry, there were poems glorifying the social and political injustices faced by the people and the artistic truths arising from these injustices, longing for the homeland, democratic national ideas about separation.


**Redaksiyaya daxil olub:** 17.05.2022